Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Azərbaycanın uğurlu antiterror əməliyyatları beynəlxalq dəstək qazanır - Kreml xəyanətləri Ermənistana bağışlamadı...

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan bu gün tamamilə fərqli və maraqlarına tam cavab verən bir vəziyyətin yaranmasına nail ola bilib. Məhz bunun nəticəsidir ki, indi beynəlxalq miqyasda Ermənistan təklәndiyi halda, Azərbaycana münasibətdə tamam fərqli mənzərə müşahidə olunur.**

### İrəvanın cəhdləri nəticə vermir...

Azərbaycan ordusu qarşısında Ermənistan tab gətirə bilməyəcəyini artıq yaxşı başa düşür. Bu səbəbdən Ermənistan tərəfi artıq Gəncəni və cəbhə zonasından uzaq digər yaşayış məntəqələrini atəşə tutmaqla qəsdən Azərbaycanı təxribata çəkir. Düşmən bununla da hərbi və döyüş əməliyyatları zonasını genişləndirməyə can atır. İrəvan ümid edir ki, Bakı da Ermənistana zərbə endirəcək və bununla İrəvan vəziyyətdən istifadə edib KTMT-yə müraciət edə biləcək. Ancaq Azərbaycan Ermənistanın təxribatlarına uymur. Ən əsası da, heç bir halda Kollektiv Təhlükəsizlik Müqabviləsi Təşkilatından (KTMT) kimsə Ermənistanı dəstəkləməyə hazırlaşmır. Qurumda hamı bu vəziyyətdə kimin təcavüzkar və genişmiqyaslı hərbi əməliyyatların təxribatçısı olduğunu yaxşı görür. Bu fonda Rusiya prezidenti Vladimir Putinin "Rossiya 1" telekanalına açıqlamasında dedikləri Azərbaycanın diplomatik qələbəsi, Ermənistanın isə yeni məğlubiyyətidir. Qeyd edək ki, açıqlamasında Putin Qarabağda gedən hərbi əməliyyatlar barədə ilk dəfə şərh verib. O, döyüş əməliyyatlarının Ermənistan ərazisində getmədiyini vurğulayıb və KTMT çərçivəsində Rusiyanın öz öhdəliklərini yerinə yetirməsi baxımından heç bir sual olmadığını bildirib: "Məlumdur ki, Ermənistan KTMT üzvüdür, bizim Ermənistan qarşısında həmin müqavilə çərçivəsində müəyyən öhdəliklərimiz var. Lakin döyüş əməliyyatları,- hansı ki, bizim dərin təəsüflərimizlə hələ də davam edir,- Ermənistan ərazisində getmir. O ki qaldı Rusiyanın bu müqavilə çərçivəsində öz öhdəliklərini yerinə yetirməsinə, biz onları həmişə yerinə yetirmişik və öz öhdəliklərimizi bundan sonra da yerinə yetirəcəyik. Bildiyiniz kimi, mən Ermənistanın baş naziri ilə daimi canlı təmasdayam, Ermənistan rəhbərliyinin Rusiyanın öz müttəfiqlik öhdəliklərini yerinə yetirməsinin keyfiyyəti barədə heç bir sualı yoxdur". Beləliklə, Rusiya Qarabağ münaqişəsinə müdaxilə etmək niyyətində deyil. Elə bu da Ermənistan üçün ciddi problem deməkdir. Çünki bu halda Ermənistan qısa müddətdə məğlub duruma düşəcəyini yaxşı bilir.

Türkiyəli ekspert Əbdülqədir Səlvi də qeyd edir ki, Ermənistanın Azərbaycana hücumlarından bəri diqqətlə izlənən liderlərdən biri Rusiya prezidenti Vladimir Putindir. O, Putinin Ermənistanın hücuma keçdiyi andan bəri, gözlənilənlərin əksinə, Ermənistana dəstək göstərmədiyinə diqqət çəkib. Hətta onun Nikol Paşinyanın düşdüyü çətin vəziyyəti uzaqdan izləməklə kifayətləndiyini diqqətə çatdırıb: "Putin bu addımı ilə ABŞ və Fransa tərəfdaşı olan Paşinyanın burnunu yerə sürtmüş olub. Putinin Paşinyanı devirib rusiyapərəst birini hökumətin başına gətirib-gətirməyəcəyi isə bilinmir". Onun sözlərinə görə, Ermənistan-Azərbaycan münaqişəsini kənardan izləyən Putinin nə zaman müdaxilə edəcəyi maraq dairəsindədir. Lakin indi görünən budur ki, Putin neytral mövqedədir. Türkiyənin strategiya mütəxəssisi Yusif Alabarda da qeyd edir ki, Rusiya Ermənistana Dağlıq Qarabağda dəstək verməyəcək. Mütəxəssis Ermənistanın baş nazirinin siyasi səhvlər buraxdığını xüsusi qeyd edir: "Rusiyanın dəstək verəcəyini zənn etmirəm. Paşinyan İbn Haldundan bixəbər olduğu üçün "coğrafiya taledir" sözünü də bilmir. Gedib Fransadakı və ABŞ-dakı diaspora Rusiyanı satıb. Sən Vladimir Putinlə olan münasibətlərini bir küncə qoydun. Özünü Emmanuel Makrona satdın. Putin zənglərinə cavab vermir. Üstəlik, açmamaqla yanaşı, bir də lağlağı edir. Putin "gəl indi hesab dəftərini açaq" deyir. Böyük ehtimal, Paşinyan hakimiyyətdən getmədən Rusiya dəstək verməyəcək".

### Düşmənin qısa müddətdə məğlubiyyəti qaçılmazdır

Cəbhə zonasında hərbi əməliyyatların təhlili artıq qısa müddətdə zəbt edilmiş ərazilərin azad olacağını istisna etmir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi əməliyyatı uğurla davam edir. Əməliyyatın dayanması üçün Azərbaycanın başlıca şərti Ermənistanın işğal etdiyi torpaqlardan çıxmasıdır. Azərbaycanın ərazi bütövlüyü təmin olunacağı halda İrəvanla danışıqlar başlaya bilər. Ancaq bunun heç də Ermənistanın və havadarlarının əvvəllər irəli sürdüyü şərtlər daxilində olması mükün deyil. Bütün şərtləri Azərbaycan diqtə edir. Bu şərtlərin nədən ibarət olduğunu isə Prezident İlham Əliyev Türkiyənin "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsində belə sadalayıb: "Danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri "Qarabağ Ermənistan deyil" deməlidir, çünki "Qarabağ Ermənistandır" ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik".

Bu şərtlərə əməl edilmədiyi halda Azırbaycan Ermənistanın işğal siyasətinə güc yolu ilə son qoyacaq. Rus hərbi ekspert Aleksey Arbatov da bunu




tamamilə mümkün sayır. O, Azərbaycan ordusunun Ermənistan ordusundan daha böyük və daha yaxşı silahlandığını da qeyd edir: "Azərbaycan hücum silahlarında daha güclüdür. Son vaxtlara qədər oraya, xüsusən də Rusiyadan, real pula böyük silah tədarükü gedirdi. Azərbaycan topçu və zirehli qüvvələrdə daha güclüdür. Bütün kateqoriyalarda Azərbaycan ordusu müasir silahlarla daha yaxşı təchiz edilib". Digər ekspert İqor Korotçenko isə xatırladır ki, Ermənistanın Azərbaycanla müharibə aparması üçün sahib olduğu resurslar, o cümlədən silah-sursat və yanacaq 2-3 həftəlik döyüş əməliyyatlarına kifayət edəcək, sonra İrəvanın döyüşməyə heç nəyi qalmayacaq. O bildirib ki, hazırda münaqişə zonasında erməni qoşunları ilə Azərbaycan qoşunları arasında Azərbaycan ərazisində tammiqyaslı döyüş əməliyyatları gedir: "Bu müharibədir. Mənim proqnozlarıma əsasən, Ermənistan iki-üç həftə müddətində eyni gərginlikdə döyüşlərə davam edəcək, daha sonra heç bir xarici dəstək olmasa, onların resursları bitəcək. Başa düşmək lazımdır ki, bu müharibədir. Burada həm uğurlar, həm də uğursuzluqlar ola bilər. Hər şey Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatları ağıllı planlaşdırmasından asılıdır. Hələlik, seçilmiş taktika, yəni əsgərlərin həyatını qorumaqla və yüksək dəqiqlikli silahlardan istifadə etməklə irəliləmək mümkün olub. Buna cavab olaraq isə Ermənistan Azərbaycanın dinc şəhərlərini atəşə tutur. Bu, hərbi cinayətdir".

### Yeni geosiyasi şərait Ermənistanı daha zəif duruma salacaq

Cəbhə zonasında hərbi əməliyyatlar, buna dünyanın münasibəti artıq Cənubi Qafqazda yeni geosiyasi durum yaradır. Bu fonda fikirlər səslənir ki, Dağlıq Qarabağdakı münaqişənin nəticəsi ilk olaraq Azərbaycan-Rusiya-Türkiyə münasibətlərinin möhkəmlənməsi ilə nəticələnə bilər. Yəni münaqişənin bir çox strateji nəticələri olacaq. Azərbaycan-Rusiya-Türkiyə münasibətlərinin möhkəmlənməsi isə öz növbəsində Ermənistanı daha zəif duruma salacaq.

Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya və Qafqazın tədqiqi mərkəzinin əməkdaşı Stanislav Pritçin də məsələyə bu prizmadan yanaşır. Rusiya-Türkiyə münasibətlərində Azərbaycanın roluna toxunan ekspert rəsmi Bakının tərəflərlə əlaqələrdə konstruktiv hərəkətlərlə seçildiyini qeyd edib. Onun sözlərinə görə, Azərbaycan xarici siyasətində balans saxlanılmasına yönəlmiş gözləmə mövqeyi tutub: "Azərbaycan münasibətlərin sabitləşməsində maraqlıdır. İndiki halda Rusiyanın Bakı və Ankara ilə yaxınlaşması Moskvanın maraqlarına tam cavab verir". Bu gün Bakı, Moskva və Ankara arasında hərbi-texniki əməkdaşlığın da xeyli gücləndiyi müşahidə edilir. İndiki halda Rusiya-Türkiyə xətti üzrə əməkdaşlıq Azərbaycan üçün həm faydalıdır, həm də Moskva və Bakı arasında strateji münasibətlərin vacib şərtlərindən biridir. Irəvanda isə belə hesab edirlər ki, Azərbaycan yaranmış vəziyyətdə Ermənistanı daha asan şəkildə təzyiqlər altında saxlayacaq.

Belə hesab edilir ki, Ermənistanda Qərb Paşinyan iqtidarı vasitəsilə hakim mövqedə olduğu müddətdə Moskva Bakı və Ankara ilə daha çox yaxınlaşacaq. Ermənistanın hazırkı hökumətinin Rusiyaya qarşı qəzəbini doğuran səbəbləri müxtəlif beynəlxalq hesabatlarda, bu ölkə rəsmilərinin çıxışlarında və dövlətin rəsmi siyasət sənədlərində tapmaq mümkündür. Ermənistanda artmaqda olan antirus mövqeyi də Paşinyanın xidmətləridir. Bu arada Ermənistan və Asiya İnkişaf Bankının birgə əməkdaşlığı çərçivəsində hazırlanan "Ermənistan: Nəqliyyat və ticarətin asanlaşdırılması strategiyası, 2020-2040" sənədi də İrəvanın Moskvaya xəyanətini göstərir. Burada nəqliyyat infrastrukturunun inkişaf etdirilməsinin, təkcə iqtisadi inkişaf səbəbləri ilə deyil, xarici ticarətin diversifikasiya olunması və dolayısı ilə Rusiya faktorunun xarici ticarətdəki dominant mövqeyinin zəiflədilməsi ilə bağlı olduğu qeyd olunur. Kreml isə bu xəyanətləri Ermənistana bağışlamayıb, daha çox Azərbaycana yaxınlaşır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**